

# Şirindil ALIŞANLI

Azərbaycanın ədəbi ictimaiyyətinə ağır itki üz verib. Görkəmli ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Şirindil Alışanlı vəfat edib.

Şirindil Həsən oğlu Alışanlı 1952-ci il oktyabrın 28-də Laçın rayonunun Əhmədli kəndində anadan olmuşdur. Bakının 19 və 111 nömrəli məktəblərində orta təhsil almışdır. 1970-1975-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir.

1976-1987-ci illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi, elmi katib, bölmə müdiri vəzifələrində çalışmışdır. Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitunun ədəbiyyat nəzəriyyəsi şöbəsində təcrübə keçmiş, məşhur estetik Yuri Borevin rəhbərliyi ilə romantizm probleminə həsr olunmuş namizədlik dissertasiyası yazmış və 1981-ci ildə müdafiə etmişdir. 1976-cı ildən ədəbi-tənqidi məqalələri ilə mətbuatda çıxış edirdi. O, ədəbi tənqidin nəzəri-metodoloji problemləri, müasir poeziya, onun əsas inkişaf meyilləri, poetik axtarışları barədə dövri mətbuatda ardıcıl çıxış etmişdir. 1993-1998-ci illərdə "Elm" qəzetinin baş redaktoru, 1997-2013-cü illərdə "Elm" Redaksiya, Nəşriyyat-Poliqrafiya Mərkəzinin direktoru olub. 1990-cı ildən "Sabah" nəşriyyatının direktoru idi. 1998-2003-cü illərdə Nizami adına Ədəbiyyat İnstitutunun Tarixi poetika şöbəsinin, sonra XX əsr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri olmuşdur. Bir sıra mötəbər elmi jurnalların və çoxcildlik nəşrlərin redaksiya heyətinin üzvü idi. Beynəlxalq konfranslarda məruzə etmişdir. Şirindil Alışanlı Moskvada çıxan "Akademiçeskie tetradi", "Nauçnaya kniqa" jurnallarının beynəlxalq redaksiya heyətinin və Akademiyanın Beynəlxalq Assosiasiyasının Kitab nəşri üzrə Şurasının üzvü idi. "Sözün estetik yaddaşı", "Romantizm: mübahisələr, həqiqətlər"(rus dilində), "Ədsəbi-bədii düşüncənin sərhədləri", "Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı", "Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi" və s.kitabların müəllifidir.

İstedadlı alim, səmimi, təvazökar insan Şirindil Alışanlının işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**